# Dövlətə xidmət, insanlara təmənnasız yaxşılıq missiyası



Respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyeva öz fəaliyyəti ilə Prezident İlham Əliyevin həyata keçirdiyi kursun daha böyük uğurlar qazanmasına layiqli töhfələr verir. Eyni zamanda Mehriban xanımın humanist və nəcib əməllərinin sədası yalnız Azərbaycandan deyil, həm də vətənimizin sərhədlərindən çox-çox uzaqlardan gəlir. Mehriban Əliyeva üçün əziz olan bu tarixdə Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

## Humanizmin, xeyirxahlığın və nəcib əməllərin ucalığında

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- İnsan müəyyən yaşa çatıb sosial münasibətlər sisteminə daxil olduğu ilk günlərdən üzərinə böyük bir ictimai məsuliyyət götürür. Bu, insan olmağın məsuliyyətidir, ömrü bir insan kimi mənalı yaşamağın mənəvi öhdəliyidir. Belə bir məsuliyyət, əslində, insanlıq taleyimizin fərdlərin üzərinə qoyduğu ali missiyadır. Kimisi layiqsiz davranışları ilə bu missiyaya xilaf çıxır, insan adını dəyərsizləşdirir, kimisi də bu missiyanı özünə şərəf bilib layiqli ömür yaşayır, həyatın mənasını dünyaya bir zərrə gözəllik bəxş etməkdə görür.

Bir də insanlıq adını daha yüksəklərə ucaldan, bu mənəvi missiyanın yeni meyarlarını formalaşdıran şəxsiyyətlər var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu ucalıqdadır.

O, eyni anda iki beynəlxalq təşkilatın sülhməramlı səfiri titulunu şərəflə daşıyan, gördüyü işlərlə bu ali statusa layiq olan nadir şəxsiyyətlərdəndir. Mehriban xanım Əliyeva dünyanın sülh elçisidir. Bu şərəfli missiyanı bir Azərbaycan qadınının yerinə yetirməsi xalqımız adına böyük qürurdur. Eyni zamanda həm Qərbin, həm də Şərqin ali dəyərlərinə sahib olan, bəşəriyyətin gələcəyi naminə bu iki dünyagörüş arasında uzlaşmanın əldə olunmasına çalışan Mehriban xanım mədəniyyətlərarası dialoqda həm də xalqımızın mənəvi dünyasını təmsil edir. Onun mənəvi dünyasında, təlqin etdiyi mənəvi dəyərlərdə Azərbaycan xalqının, Azərbaycan qadınının bir çox üstün cəhətləri öz ifadəsini tapır. Mehriban xanım bu ucalıqda ən yüksək milli keyfiyyətlərimizin simvoluna çevrilir.

Xeyirxahlıq, başqalarına təmənnasız kömək, insanlara sevgi, şəfqət göstərmək xalqımızın ruhundadır. Mehriban xanım da bu milli ruhun təmsilçisidir. Onun nəcib əməllərinin hekayəsi, etdiyi yaxşılıqların sevinci minlərlə adamın taleyinə yazılıb. Onların həyat yolunda ümid çırağı yandırıb. Mehriban xanım Əliyeva hər hansı bir insana kömək göstərilməsinə, başqaları üçün faydalı bir işin görülməsinə fərdi çərçivədə yanaşmır. O, bütün bunlara ümumən bəşəriyyətə xidmət kimi yanaşır. Çünki bəşəriyyət mücərrəd bir məfhum deyil, ayrı-ayrı fərdlərdən ibarətdir, hər insan bəşəriyyətin bir hissəsidir. Hər bir insanın yaxşılığı naminə ortaya qoyulmuş real əməl insanlığa xidmətdir, bəşəriyyətin xoşbəxtliyi üçün çalışmaqdır. Mehriban xanım da bu amal uğrunda yorulmadan çalışır. İnsani dəyərlərin, sevginin, xeyirxahlığın, mədəniyyətlər arasında dialoq və qarşılıqlı hörmət ruhunun, multikulturalizmin bütün dünyada hakimliyi üçün misilsiz fədakarlıq göstərir. Azərbaycan dövlətinin təşəbbüsü, onun mahir təşkilatçılığı ilə ölkəmizdə keçirilmiş I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, qlobal mədəniyyət tədbirləri, 2008-ci ildən başlayaraq keçirilən humanitar forumlarla sivilizasiyalararası dialoqda böyük nəticələr yaradan və BMT kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilən "Bakı prosesi" kimi təşəbbüslər bu fədakarlığın təcəssümüdür.

2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilən Mehriban xanım Əliyevanın deputatlıq fəaliyyəti isə parlament tariximizin şərəfli səhifələrindən biridir. Onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həllinə yönəlmişdi. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban xanım Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib.

Ulu Öndər Heydər Əliyevin qurduğu dövləti tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmış Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın göstərdiyi bu fədakarlıq, insanlığa xidmət missiyası Azərbaycan qadınının cəmiyyətdəki rolu barədə aydın təsəvvür formalaşdırır. Onun gördüyü işlər ölkəmizdə qadın fəallığı ənənələrinin inkişafında yeni bir salnamədir. Azərbaycana, ümumilikdə isə dünyaya zəngin töhfələrlə yazılan bu salnamə Azərbaycan qadınının əzmkarlığının, zəhmətsevərliyinin, insanlara, ümumbəşəri dəyərlərə sevgisinin hər cümləsi ilə rəğbət doğuran uğur hekayəsidir.

Mehriban xanım Əliyeva xeyir əməllər sahibidir. Sadəlik, səmimiyyət, xeyirxahlıq, köməyə ehtiyacı olan insanlara yardımı əsirgəməmək, yaxşılıqlarla dünyanı gözəlləşdirmək onun xarakterinin parlaq cizgiləridir. O, xalqımızın mənəvi dünyasında özünəməxsus yer tutan xeyriyyəçiliyə, cəmiyyət üçün savab işlər görməyə yeni məzmun qazandıra bilib. Onun xeyirxahlığı, insanların faydası üçün həyata keçirdiyi humanitar layihələr Azərbaycan sərhədlərindən çox-çox kənarlarda da bu vətənin adına böyük rəğbət yaradır. Mehriban xanım xeyriyyəçiliyin insanlar arasında maddidən daha çox mənəvi bağlılıq yaratdığını göstərir. O, dünyaya qəlbinin sonsuz sevgisi ilə qucaq açır. Bütün xalqları hamımızın ümumi evimiz olan Yer üzünün sakinləri, ruh ortağı kimi qəbul edir. Bu da Azərbaycandan kənardakı dünya adlı böyük Vətəndə də Mehriban xanımın adını tanıdır, bu ada və onunla birgə Azərbaycana böyük rəğbət, məhəbbət qazandırır.

Ümumiyyətlə, Mehriban xanım cəmiyyətdəki sosial problemlərin həlli üçün fundamental baxışlara sahibdir. O, bu problemlərin həlli üçün nə mümkündürsə edir. Dövlətimizin həyata keçirdiyi cari tədbirlərə fəal dəstək verir. Reallaşdırılan sosial proqramın icrasına, məqsədlərə çatmasına, Prezidentimizin bu istiqamətdə verdiyi göstərişlərin yerinə yetirilməsinə kömək göstərir. Eyni zamanda Mehriban xanım fərqindədir ki, daimi qayğıya ehtiyacı olan insanların gündəlik tələbatlarını qarşılamaqla bu problemlər tam aradan qalxan deyil. İmkansız ailələrin zaman keçdikcə yeni nəsilləri formalaşır. Onlar da eyni sıxıntılardan əziyyət çəkə bilərlər. Ona görə də Mehriban xanım bu sıxıntıları aradan qaldırmağın yeganə, alternativsiz vasitəsi kimi təhsili, müasir dövrün bilik və bacarıqlarını aktuallaşdırır. Həyata keçirdiyi təhsil layihələrinin uğuru ilə göstərir ki, insanlara ən böyük kömək onlara savad vermək, hansısa sənət öyrətmək, əldə etdikləri müasir bilik və bacarıqlarla qlobal əmək bazarının üzvlərinə çevrilmələrinə kömək göstərməkdir. O, yerinə yetirdiyi layihələrlə bunun mümkünlüyünü sübuta yetirir. Getdikcə daha çox insanı, qurumu bu prosesə cəlb etməyə müyəssər olur.

Heydər Əliyev ideyaları ilə silahlanmış, hər zaman peşəkarlığı, işgüzarlığı və prinsipiallığı ilə seçilən Mehriban Əliyevanı xarakterizə edən digər mühüm göstəricilərdən biri milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə böyük önəm verməsidir. İstər Heydər Əliyev Fondunun prezidenti, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, milli mədəniyyətimizin qorunması və dünyada təbliği Mehriban Əliyevanın xalqa xidmət missiyasının əsas istiqamətlərindəndir. Hansı ki, bunlar son nəticədə nəcib məqsədə - Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. Ötən illər ərzində neçə-neçə tarixi-mədəniyyət abidələrinin yenidən qurulması, muğam musiqi müsabiqələrinin və dünya şöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsi, xarici ölkələrdə müxtəlif sərgilərin təşkili bu ali məramın intişarına yönəlib.

Yaratdığı nümunələrlə, təlqin etdiyi dəyərlərlə Mehriban xanım gənclərimizin gələcəyinə yol açır. Onlar bu işıqlı şəxsiyyətdən görüb-götürürlər. Ondan xeyirxahlığı, mərhəməti, insanları halından anlamağı, cəmiyyət üçün faydalı olmağı, bir o qədər də fərdi inkişaf ruhunu, Vətənə məhəbbəti öyrənirlər. Mehriban xanımın təlqin etdiyi keyfiyyətlər gənclərimizi təhsil almağa, bilik və bacarıqlarını inkişaf etdirməyə, yaradılmış təhsil və karyera imkanlarından istifadə etməyə, ictimai həyatda fəal şəkildə iştiraka ruhlandırır. Onların sosial-iqtisadi müstəqilliyinə təminat yaradır. Zərərli vərdişləri, ziyanlı təsirləri gənclərimizin həyatından kənarlaşdırır.

Mehriban Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin olunması ilə bu günümüzü cəmi 3 il yarımlıq zaman kəsiyi ayırır. Elə də uzun olmayan bu dövrdə gördüyü işlər göstərir ki, Birinci vitse-prezident kimi Mehriban Əliyeva dövlətimizə və xalqımıza layiqincə xidmət edir, ilk növbədə, sosial həssas vətəndaş qruplarının ehtiyaclarına diqqət yetirməyi fəaliyyətinin prioriteti elan edib. Ötən 3 il yarımda məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi bunun bariz təcəssümüdür. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq tədbirlərin layiqincə keçirilməsi, müxtəlif ölkələrin və təşkilatların rəhbərləri ilə ikitərəfli görüşlərin keçirilməsi, orta məktəblərin, uşaq bağçalarının, mədəniyyət ocaqlarının təmiri və yenidən qurulması bu müddətdə Mehriban Əliyevanın fəaliyyətində prioritet təşkil edib.

Kimsəsizlərin, ahılların, xüsusi həssas əhali qruplarından olan hər kəsin güvənc yeridir Mehriban xanım. İnsanlar ona inanır, hər hansı problemləri ilə bağlı ürəklə, ümidlə ünvanına üz tuturlar. Bilirlər ki, üzləşdikləri durum Mehriban xanımın həssas nəzərlərindən, qayğıkeş münasibətindən kənarda qalmayacaq və problemlərə mütləq bir çarə tapılacaq. Təsadüfi deyil ki, Mehriban xanımın xeyirxah, humanist obrazı xalqımız tərəfindən yüksək qiymətləndirilir, o cümlədən bu misilsiz fəaliyyət sənət adamlarının yaradıcılıq nümunələrində əksini tapır. Yüz minlərlə insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən hələ 2004-cü ildə sözləri Gülnur Aslana məxsus "Mehriban insan" əsərini bəstələməklə ifadə etmişəm.

Mehriban xanım bir xalqın tarix boyu əldə etdiyi ən qiymətli sərvət olan mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin hamisidir. Azərbaycan mədəniyyəti incilərinin qorunması, inkişafı, bütün dünyada təbliği istiqamətində gördüyü işlərlə milli ruhumuzun mühafizidir.

Xalqımızın milli-mənəvi dünyasında indi o özü də bir dəyərdir. Mehriban xanım bu adı, bu ucalığı öz əməlləri ilə qazanıb.

## Əsl insanlıq nümunəsi

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Qədim yunan müdriklərindən Sokrat deyirdi ki, "İnsanı həyata bağlayan onun gözəl cəhətləridir". Əslində, dünyaya gələn hər kəs bu cəhətlərlə birgə doğulur. Təbiətin verdiyi gözəllikləri necə ifadə edə bilməsi isə onun düşdüyü mühitdən, boya-başa çatdıqdan sonra özünə seçdiyi yoldan, qarşıya qoyduğu həyat məqsədlərindən asılı olur.

İnsanın bu həyat məqsədlərini tapmasından, kamilliyə aparan yola doğru ilk addımlarını ata bilməsindən ötrü mütləq nümunələrə ehtiyacı var. Bəşəriyyət üçün örnək yaradan nümunələr olmayanda yanlış işlər insanın taleyini yanlış istiqamətlərə yönəldəcək. Beləcə, mənalı işlərə sərf etmək, dünyanı gözəlləşdirmək, yaddaşlarda yaxşı biri kimi daim xatırlanmaq üçün əta olunmuş ömür boşuna xərclənəcək. İnsanın gözləri önündə parlaq örnəklər olanda isə o, həyatın dəyərini anlayacaq, mənasını dərk edəcək, ömrü bir-birini izləyən yeknəsək günlərə deyil, bəşəriyyətin bu günü və gələcəyi naminə böyük bir missiyaya çevirəcək.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müasir tariximizdə çox yüksək xidmətləri var. Onun təşəbbüsü, rəhbərliyi ilə görülmüş, indi də görülməkdə olan işlərin hər biri böyük tarixi salnamədir. Bununla belə əgər əhəmiyyətinə görə sıralasaq, zənnimizcə, bütün bu işlərin ön sırasında Mehriban xanım Əliyevanın öz şəxsiyyəti ilə müasir dünyanın insanları üçün yaratdığı əsl insanlıq nümunəsi gələcək. Belə bir şəxsiyyət nümunəsi cəmiyyəti formalaşdırmaq, onu ali dəyərlər işığında bir araya gətirmək üçün çox önəmlidir.

Mehriban Əliyeva öz varlığı ilə hər bir vətəndaşımız, ümumilikdə bütün dünya azərbaycanlıları üçün bu örnəyi yaradır. Həm ayrı-ayrı fərdlər, həm də ümumilikdə xalq olaraq tarixdə hər zaman yüksəlmək, davamlı nailiyyətlər qazanmaq üçün düzgün yolu, əsl dəyərləri göstərir. Bu mənada Mehriban xanımın irəli sürdüyü, həyata keçirdiyi təşəbbüslərin hər biri təkcə müxtəlif sahələrdə inkişaf nailiyyətləri yaradan, minlərlə insanın həyatını yaxşılaşdıran, sosial rifahına xidmət edən layihələr deyil. Bunlar həm də ayrılıqda fərdlərə, ümumən isə cəmiyyətə ötürülən mesajlardır. Bu amallara tapınmağın əhəmiyyətini hər birimizə anlatmaqdır.

Mehriban xanım Əliyeva öz ictimai missiyasını yerinə yetirməyə hələ 90-cı illərin ortalarında Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmaqla başladı, milli mədəniyyətimizə üz tutdu. Mədəniyyət dünyanın başlanğıcıdır, xalqın ruhudur, keçmişlə bu gün, bu günlə gələcək arasında maddi-mənəvi bağdır. Nəsillərdən-nəsillərə ötürülən əmanətdir. Mədəniyyət xalqların tarix boyu əldə etdikləri nailiyyətlərin qorunduğu xəzinədir. Dövlətlərin əldə etdiyi ən böyük nailiyyətlər də zaman keçdikcə mədəniyyət faktına çevrilir. Başqa yeni uğurlara transformasiya olunub, öz mövcudluğunu bu dəfə də xalqın mədəniyyət xəzinəsində qoruyub saxlayır. Mehriban xanım Əliyevanın himayəsinə götürdüyü, inkişafına dəstək olduğu, bütün dünyada təbliğ etdiyi Azərbaycan mədəniyyəti nümunələri bizim ən qiymətli sərvətimizdir.

Mehriban xanımın aktuallaşdırdığı dəyərlər isə bizi yenidən özümüzə, kimliyimizə, insan olaraq daşıdığımız mənəvi keyfiyyətlərə qaytarır. Göstərir ki, insan biganəlik hissini özünə yaxın buraxmamalıdır. Dünyada özgə dərdi deyilən bir anlayış yoxdur. Əgər Yer üzünün hansısa məkanında əzab çəkən, köməyə ehtiyacı olan biri varsa, bu əzabdan dünyadakı bütün insanlara pay düşür. Əsrlərdir bizimlə yol gələn, xeyirxahlığın, şəfqətin, qarşılıqlı köməyin, paylaşmaq, yardımlaşmaq hissinin köməyi ilə dünyada əzab çəkən, öz dərdləri ilə təkbaşına qalan, özünü tənha, çarəsiz və ümidsiz hiss edən insanlara həyan ola bilərik. Onda dünyamız yaşamaq üçün daha gözəl olar.

Ulu Öndər Heydər Əliyevin ideyaları işığında yaradılmış Heydər Əliyev Fondunun fəaliyyəti də bu prinsip üzərində bərqərardır. 2004-cü ildə yaradılmış bu fond illərdir ki, insanların ümid qapısına, pənah ünvanına çevrilib. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond əli hər yerdən üzülmüş insanlara bacardığı köməyi göstərir. Onların problemlərinin həlli, müşküllərinə çarə tapılması üçün mümkün olanları edir. Bu fondun insanlara verdiyi ən böyük dəstək isə onların qəlbində yandırdığı ümid çırağıdır. İnsan ümidini itirməyəndə isə geridə buraxa bilməyəcəyi heç bir çətinlik qalmır.

Ölkəmizin Birinci vitse-prezidenti kimi Mehriban Əliyeva köməyə ehtiyacı olan insanların yanındadır. Onların ümididir, köməyidir, müşkülləri aradan qalxmış vətəndaşların məmnuniyyətidir, dövlətimizə getdikcə artan inam və dəstəyidir.

Mehriban xanım Əliyevanın fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi təhsil islahatlarına, təhsilimizin inkişafı yönündə həyata keçirilən tədbirlərə Mehriban xanım Əliyeva fəal dəstək verir. Bu da təsadüfi deyil. Çin müdriklərindən Konfutsi deyirdi ki, insanlara balıq verməkdənsə, balıqçı toru bağışlayın və onlara balıq tutmağı öyrədin. Müasir dünyamızda da insanın inkişafının əsas vasitəsi məhz təhsildir. İnsan yalnız təhsil sahəsində öz dəyərini artıra, zəruri bilik və bacarıqlara yiyələnməklə əmək bazarı üçün faydalı ola, firavan həyatını təmin edə bilər. Bunun başqa bir alternativi yoxdur.

Bu təhsil layihələri isə, ilk növbədə, təhsilə münasibəti dəyişir. Hər bir vətəndaşımıza anladır ki, müasir dünyada yüksək təhsilli olmaq həyati zərurətdir. Dövlət bununla bağlı üzərinə düşən hər bir addımı atır. Bu addımları dəyərləndirmək isə artıq həm də vətəndaş məsuliyyəti məsələsidir. Sevindiricidir ki, Mehriban xanımın təşəbbüsü ilə inşa edilmiş yüzlərlə məktəbin xoş bəhrələrini gənc nəslin təhsil nailiyyətlərində, dövrün yeni bilik və bacarıqlarına getdikcə artan marağında görüb müşahidə edə bilirik.

Mehriban xanım idmana, ətraf mühitə göstərdiyi diqqətlə insanlarımızın sağlamlığı qayğısına qalır. Eyni zamanda bütün dünyada bərqərar olmasına fədakar əmək sərf etdiyi sülh, tolerantlıq, mədəniyyətlərarası dialoq ideyaları ilə insanların mənəvi dünyasının qorunmasına dəyərli töhfələr verməyə çalışır.

O, mahir təşkilatçıdır, mükəmməl menecerdir, dövlətçilik ideyalarına sadiq vətəndaşdır, nəcib əməlləri ilə insanların rəğbətini qazanmış əsl şəxsiyyətdir. Mehriban xanım Əliyeva Azərbaycan Prezidentinin ölkəmizin inkişafı üçün qarşıya qoyduğu strateji hədəflərin əldə olunmasına böyük töhfələr verir. Bu siyasətə xidməti, dövlətimiz və xalqımız üçün yaratdığı faydalarla qürur duyur.

Belə şəxsiyyətlərimizin varlığı bizim də qürur mənbəyimizdir.

## Dövlətə və xalqa xidmətin təcəssümü

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,*
*YAP Ağdaş rayon təşkilatının sədri:*

- Azərbaycan tarixində zamanın, hadisələrin məhvərini dəyişməyə qadir, sərkərdə ruhlu, siyasətdə, elmdə, mədəniyyətdə, incəsənətdə və digər bütün sahələrdə ciddi nəticələrə imza atan güclü qadınlar çox olub. Onlar cəmiyyətimizin inkişafında fəal iştirak edib, ona öz töhfələrini veriblər.

Çağdaş Azərbaycan qadını da təkcə ana deyil, o, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmurudur. Respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası daha aydın görünür. Təsadüfi deyil ki, Mehriban Əliyevanın siyasi-ictimai fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünyada Azərbaycan qadınının obrazının formalaşmasında müstəsna rola malikdir. Onun təşəbbüsü ilə humanitar, elm və təhsil, sosial, idman, mədəniyyətlər və sivilizasiyalararası dialoq və digər istiqamətlərdə həyata keçirilən tədbirlər həm ölkədə, həm də onun hüdudlarından kənarda rəğbətlə qarşılanır. Ən əsası, bu tədbirlər dövlət siyasətinin daha böyük uğurlar qazanmasında böyük rol oynayır.

Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin fevral ayında Birinci vitse-prezident vəzifəsinə təyin olunmasında, ilk növbədə, Mehriban Əliyevanın ölkəmizin ictimai-siyasi, mədəni həyatında oynadığı müstəsna xidmətlərin mühüm rolu oldu.

Mehriban xanım Əliyevanın bu uca kürsüyə uzanan uğur yolu məhz mərhəmət, şəfqət, xeyirxahlıq, humanizm kimi ali bəşəri hisslərinin tərənnümü, insanların xoşbəxt, sağlam, firavan olması üçün gecə-gündüz göstərilən əzmkar mübarizəsindən başlayırdı...

Birinci xanım hər zaman Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin inkişafı naminə geniş və hərtərəfli fəaliyyət göstərib, humanizm ideyalarını dəstəkləyib. Məhz Mehriban xanımın təşəbbüsü ilə 2007-2016-cı illər ərzində 4 amnistiya aktının qəbul edilməsi cəmiyyətimizə xoş ovqat gətirib.

2004-cü ildə yaranan Heydər Əliyev Fondu Birinci xanımın rəhbərliyi altında nəinki respublikamızda, eyni zamanda dost xarici ölkələrdə müxtəlif layihə və proqramlar reallaşdırır, eyni zamanda Azərbaycanı dünyada layiqincə təbliğ edərək əsl vətənpərvərlik missiyasını həyata keçirir.

Fəaliyyətə başladığı ilk zamandan etibarən fond təhsil sahəsində başlatdığı xeyli sayda layihəni hazırda da uğurla davam etdirir. İndiyə qədər ölkədə dövlət xətti ilə 3 mindən çox məktəb tikilib, təmir edilib, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, maddi-texniki baza möhkəmləndirilib. Uşaq evlərinin kimsəsiz sakinləri də daim Mehriban xanımın diqqəti və qayğısı ilə əhatə olunub. Onların təlim-tərbiyə, təhsil almalarına diqqət yetirir, gələcək həyatlarında uğur qazanmaları üçün hər cür imkan və şərait yaradır.

Heydər Əliyev Fondunun ölkəmizin səhiyyə sisteminin inkişafına dəstəyi ölçüyəgəlməz miqyasda böyükdür. Mehriban xanımın təşəbbüsü ilə fond pandemiya dövründə ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə mühüm töhfələr verir. Birinci vitse-prezidentin tapşırığına əsasən, fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində yardımlar göstərilib və bu istiqamətdə kömək davam etdirilir.

Bütün bu ictimai-siyasi vəzifələrlə yanaşı, Mehriban Əliyeva həm də Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Öz fəaliyyəti ilə partiyanın möhkəmlənməsi, sıralarının artması üçün çox böyük əmək sərf edir.

Mehriban Əliyevanın fəaliyyəti kifayət qədər çoxşaxəlidir. Bütün bunları ümumiləşdirsək görərik ki, Birinci vitse-prezidentin gördüyü işlər yalnız və yalnız xalqa xidmət missiyasından ibarətdir. Ən əsası isə odur ki, bu fəaliyyət Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla və layiqincə tamamlayır.

## Xeyirxahlığın elçisi

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Dünya xeyirxahlığın üzərində bərqərar olub. Ona görə məhz humanizmdir insan yaşamını minillərin o tayına, sonsuzluğa daşıyan ali missiya. Elə mərhəmət, şəfqət, insanpərvərlik kimi yüksək hissləri özündə birləşdirməyi bacaran və Tanrı dərgahında kamil insan məqamına yetişən yüksək mənəviyyatlı şəxsiyyətlər sayəsində Yer üzündə firavanlıq, barışıq, sülh mümkün olur...

Onun da həyat fəlsəfəsi xoş əməllər, yaxşılıq, insanlığa xidmətdir. Xeyirxahlıq əsas qayəsi, xoşbəxtliyə vəsilə olmaq ümdə arzusudur. Yer üzündə şərə qarşı mətanətlə mübarizə aparır, bütün dünyada barışın bərqərar olmasına çalışır, sülh elçiliyi edir... Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadan danışıram. "Xeyriyyəçilik - insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işdir"- deyən Mehriban Əliyeva heç bir qarşılıq gözləmədən bütün gücünü, enerjisini, zamanını nəcib əməllərə sərf edir. İnsanların sağlamlığına, təhsilinə, həyat şəraitlərinin yaxşılaşdırılmasına, sosial müdafiələrinə dəstək durmağa çalışır. Mehriban xanım dövlətimizin inkişafı, tərəqqisi naminə geniş və hərtərəfli fəaliyyət göstərir və heç bir sahə diqqətindən kənarda qalmır.

2004-cü ildə Heydər Əliyev Fondunun fəaliyyətə başlaması ilə Azərbaycanda illər əvvəl mövcud olan xeyriyyəçilik məktəbi yenidən dirçəldi. Qısa zaman çərçivəsində fond yaxşı mənada inanılması çətin olan böyük layihələrə imza atdı. Ən ümdəsi isə bütün Azərbaycan xalqının ümid istinadgahına çevrildi, pənah evi oldu. Birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu 16 illik fəaliyyəti ərzində Azərbaycanın, eləcə də bir çox ölkələrin ictimai həyatında fəal iştirak edir. Müxtəlif layihə və proqramlar həyata keçirməklə yanaşı, aktiv şəkildə Azərbaycanı dünyada təbliğ edir.

Mehriban Əliyeva uşaqların sağlam və təhsilli böyümələri üçün müstəsna xidmətlər həyata keçirir. O, ölkəmizin gələcəyini sağlam ruhlu, təhsilli, savadlı uşaqlarda görür, müasir dünyanın çağırışlarına cavab vermək üçün hərtərəfli savada və biliyə malik olmalarını istəyir və xüsusilə vurğulayır ki, "Siz gərək öz Vətəninizi sevəsiniz, vətənpərvərlik ruhunda tərbiyə olunasınız, eyni zamanda bütün dünyaya açıq olasınız". Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana - yeni məktəb", "Təhsilə dəstək" kimi layihələr sayəsində respublikamızın bütün bölgələrində yeni məktəblər inşa olunur, təmir edilir, müasir avadanlıqlarla təchiz edilir. Hər yeni tədris ilində Heydər Əliyev Fondu aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatları hədiyyə edir.

Məhz birinci xanımın sayəsində uşaq evi və internat məktəblərinə də diqqət artıb, oradakı uşaqların hər biri qayğıyla hərtərəfli əhatə olunub. Mehriban Əliyevanın körpə və uşaqların sağlamlığı istiqamətində gördüyü işlər də misilsiz əhəmiyyətə malikdir. Daun, talassemiya, autizm, fiziki və əqli qüsurlu, şəkər, xərçəng və digər amansız xəstəliklərə mübtəla olan uşaqların sağaldılmaları üçün bütün mümkün işlər görülür. Məhz Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə Azərbaycanda Avropa səviyyəli Talassemiya, Daun, Psixonevroloji Uşaq mərkəzləri və bu qəbildən olan digər əhəmiyyətli tibb ocaqları istifadəyə verilib.

2017-ci ilin fevral ayının 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Birinci vitse-prezident təyin olunan Mehriban Əliyeva bu vəzifədəki fəaliyyəti dövründə də hər zaman əhalinin zəif müdafiə olunan təbəqələrinə etdiyi yardımlar, qaçqın və məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli istiqamətində atdığı addımlar, kimsəsizlərə, xəstələrə göstərdiyi qayğı ilə əvvəlki illərdə gördüyü işləri davam etdirir. Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi bunu təsdiqləyən reallıqlardan sadəcə bir misaldır.

Mehriban Əliyevanın insanlığa olan sonsuz məhəbbəti, kimsəsizlərə, darda qalanlara qayğısı, mədəniyyətə olan dərin hörməti isə ali bəşəri hisslərindən doğur. Heç təsadüfi deyil ki, Azərbaycanın birinci xanımı UNESKO və ICESCO-nun xoşməramlı səfiridir və dünyada ikinci belə şəxsiyyət yoxdur ki, bu iki mötəbər təşkilatın üzvü olsun.

İnsanlara xeyirxahlıq, mərhəmət, şəfqət, qayğı, dayaq vəd edən bu müqəddəs yolda Mehriban Əliyevaya uğurlar arzulayıram.

***Hazırladı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***